# Əsgərlərin yanında

Çox doğru deyiblər; Vətən sərhəddən başlanır. Vətən torpağının hər qarışı bizim üçün əzizdir. Öz vətənini canından artıq sevən, əldə silah gecə-gündüz torpağımızın keşiyində hünərlə, sayıqlıqla dayanan oğullarla biz haqlı olaraq fəxr edirik.

Bizim Qaymaqlı kənd mədəniyyət evinin işçiləri də vətən torpaqlarını düşmənlərdən qoruyan əsgər və zabitlərlə yaxından əlaqə saxlayır, onlara mənəvi dəstək olurlar.

Bu yaxınlarda biz mədəniyyət işçilərinin Qaymaqlı kəndindəki «Daş çal» və «Qayalı» deyilən yerdə mövqe tutan Milli Ordunun əsgər və zabit heyəti ilə görüşü oldu. Əsgərlərimizin mənfur düşmənlərlə aralarındakı məsafə təxminən 300-400 metr ancaq olar. Bizi orada taqım komandiri, baş leytenant Soltan Musayev qarşıladı. S.Musayev 15 ildir Milli Ordu sıralarında xidmət edir. Özü Şəki şəhərindəndir. Bakı Ali Birləşmiş Komandirlər Məktəbinin məzunudur. Şuşada, Laçında, Ağdamda, Tərtərdə, Kəlbəcərdə hərbi xidmətdə olmuşdur. Biləsuvar rayonundan olan taqım komandirinin müavini, gizir Azər Bağırov səmimi və mehriban oğlandır. İşinin öhdəsindən layiqincə gəlir.

Mən, mədəniyyət işçiləri adından əsgərlərimizi qarşıdan gələn bahar bayramı – Novruz bayramı münasibətilə təbrik etdim, onlara xoş arzularımı bildirdim. Hərbi-vətənpərvərlik ruhunda şerlərimi oxudum. Milli Ordumuzda son vaxtlar aparılan islahatlar, dövlətçiliyimizin, müstəqilliyimizin qorunması yolunda Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin gördüyü möhtəşəm işlərdən ətraflı söhbət açdım.



*Müharibə bölgələrindən bizi də bizim Qazax rayonunun İncə dərəsidir. Qaymaqlı kəndi Ermənistanla sərhəddə yerləşir.*

Musiqi vətən müdafiəçilərinə ən gözəl töhvə oldu. Tapdıq Kərimovun qarmonda, Musa Şöyübovun nağarada çaldıqları el havaları, xalq mahnıları, milli rəqslərimiz, qəhrəmanlıq nəğmələri pərdə-pərdə ətrafa yayıldı. Əsgərlər rəqs edib şənləndilər. Musiqi əsgər və zabitlərimizə ruhi qida verdi. Onların qanlarını coşdurdu, canlarına hərarət, ürəklərinə təpər, qollarına güc-qüvvət gətirdi.. Əsgərləri döyüşə, qisasa, «Cəngi»yə səslədi.

Bizim mədəniyyət evinin və kitabxananın işçiləri hərbçilər üçün siqaret, kibrit, lezva, sabun və s. zəruri gündəlik tələbat mallarını da alıb aparmışdılar. Biz eyni zamanda Novruz bayramı münasibətilə əsgərlərə cürbəcür şirin çörəklər, şirniyyat sovqatı da hədiyyə etdik.

Qaymaqlı kənd mədəniyyət evinin və kitabxana işçilərindən Tükəzban Süleymanova, Xəzanə İsmayılova, Zinyət Bəşirova, Mələk Nəsibova və Akifə Mürüdova əsgərlərə ürək-dirək verməklə onları Qələbəyə ruhlandırdılar, birgə deyib-gülüb, rəqs edib şənləndilər.

Əsgər və zabitlər sovqat və maraqlı görüş üçün biz mədəniyyət işçilərinə öz təşəkkürlərini bildirdilər.

Batalyon komandiri, kapitan Mübariz Novruzovun dediklərindən;

- Hələlik atəşkəsdir. Ancaq ehtiyatı əldən vermək olmaz. Ermənilər çox namərd və hiyləgərdir. Onlara heç vaxt etibar yoxdur. Ona görə də biz sayıqlığımızı itirməməliyik. Azərbaycanın xoşbəxt gələcəyini, xalqımızın azadlığını qorumaq bizə tapşırılıb. Vətən bizə oğul deyib, öz müdafiəsini bizlərə etibar etmişdir. Biz bu etimadı doğrultmalıyıq. Düşmənə hər zaman cavab verməyə hazırıq! Komandir başda olmaqla hərbçilərə Allah yar olsun! – deyirəm.

Bəli, qələbə müjdəli, xoş soraqlı sabahlar umidi ilə biz mədəniyyət işçiləri əsgər və zabitlərimizdən nikbin əhvalı-ruhiyyə ilə yenidən görüşmək arzusuyla ayrıldıq.

**Kazım KAZIMLI,**
**Qazax rayonu,**
**Qaymaqlı kənd mədəniyyət evinin müdiri**